# Əzablı günlər

**Pyes Azərbaycanın realist rəssamı Bəhruz Kəngərlinin xatirəsinə həsr olunur.**

*Əhvalat 1922-ci ilin əvvəllərində Naxçıvandakı tarixi hadisələrdən götürülmüşdür.*

*Səhnədə pərdə salınmışdır. Sağ tərəfdən Şirəlibəy nimdaş məmur paltosunda, əlində qovluq, başında papaq, gözündə gözlük, bığlı-saqqallı qiyafədə səhnəyə gəlir. O, səhnənin ortasına çatanda sol tərəfdən Mirzalıbəy Bəktaşı çıxır. Onun da başında börk, geydiyi gödəkçənin qayışından asılmış tapança, ayağında qara uzunboğaz çəkmə, döşündə də qırmızı lentdən bağladığı bantı vardır.*

**İŞTİRAK EDİRLƏR:**

**Şirəlibəy Kəngərli – 65 yaşında**
**Bəhruz Kəngərli – 28 yaşında**
**Mirzalıbəy Bəktaşi – 30 yaşında**
**Məşhədi Orucəli (dəllək) – 49 yaşında**
**Gülsüm (qaçqın qadın) – 40 yaşında**

*Onlar bir-birinə çatdıqda hər ikisi qorxaraq bir anlığa ayaq saxlayıb dayanırlar.*

Şirəlibəy: - Salamunəleykim Mirzalı!

Mirzalıbəy: - Əleykusəlam, ay Şirəli!

*Mirzalıbəy kimdənsə qorxurmuş kimi o tərəf, bu tərəfə baxaraq əl atıb Şirəlibəylə səmimi görüşür.*

Mirzalıbəy: - Ay Şirəli, səni göydə axtarırdım, yerdə əlimə düşmüsən.

Şirəlibəy: - Xeyir ola, məni nə əcəb axtarırsan? Olmaya ərizə yazdıracaqsan?

Mirzalıbəy: - Şirəlibəy, deyəsən işlərin şuluqdur. Bu günə-sabaha Naxçıvan Diyar İnqilab Komitəsində fövqəladə iclas keçirməlidirlər. Aldığım bilgiyə görə Naxçıvan Sovet Sosialist Respublikasının Mərkəzi İcraiyyə Komitəsi yaradılacaq, Firqə Komitəsinə də Əhmədbəy Haşımov katib seçiləcəkdir.

Şirəlibəy: - Bəy, bunun mənə nə isti-soyuğu vardır?

Mirzalıbəy: - Naxçıvan Diyar İnqilab Komitəsində ruslarla yanaşı ermənilər də iş başındadırlar. Hətta onlardan səni tanıyanlar da vardır.

Şirəlibəy: - Axı, bir məni başa sal görüm, mən xalqıma nə pisliklər etmişəm, günahım nədir?

Mirzalıbəy: - Bil ki, o adamlar Bakıdakı Şaumyanın əlaltılarıdır ki, soxulublar hökumət işlərinə, əvvəllər mənsəb sahibi olanların adlarını danoslaşdırıb «qara siyahıya» yazmışlar.

Şirəlibəy: - Sən özün bilirsən ki, mən varlı adam olmamışam, bir həsir, bir də Məmmədnəsirəm.

*Onlar ikisi də gülüşürlər.*

Mirzalıbəy: - Dostum Şirəli, axşam həmin siyahını əlimə keçirdim. Gördüm ki, sənin də adını ora yazmışlar. Özümü təhlükəyə ataraq siyahıdakı adıvı pozub, erməni feldşeri Xaçaturun adı ilə əvəz etdim.

Şirəlibəy: - Yaxşı, çox sağolginən. Yaxşı indi mən nə edim, məsləhətin nədir? Axı...

Mirzalıbəy: - Axısı-zadı yoxdur. Mən bu işin altına girmişəm, sənsə elə bu gündə qiyafəvi dəyişdir. Üz-gözünü təraş elətdir. Başuva şapqa qoyaraq olginən «raboçiy bednyak».

*Hər ikisi gülüşürlər.*

Şirəlibəy: - Mirzalı, deyirsən elə doğrudan da bığ-saqqalımı qırxdırım?

Mirzalıbəy: - Bəli! Doğrudan qırxdır. Daha mən səninlə zarafat eləmirəm ki. Ancaq bu işdə tələs, get bazardakı dəlləkxanaya dediklərimi elə, vəssalam. Di xudahafız!

*Onlar gəldikləri tərəfə, pərdənin arxasına tərəf gedirlər.*

(Pərdə)

*Şəhərin bazar meydanında bərbərxana. Dəllək Məşhədi Orucəli bərbərxanasının qapısı ağzında çöməlib, əlindəki ülgücü bülövə sürtməkdədir. Birdən üzünü sağ tərəfə tutanda Şirəlibəyin ona tərəf gəldiyini görür.*

Məşhədi Orucəli: - Ay xoş gördük səni, ay Şirəlibəy. Nə var, nə yox? Bəhruz necədir? Eşitdim ki, azarlanmışdır. Özündən muğayət olsun. Çoxdandır ki, görsənmirsən. Di gəlginən içəri, bayır soyuqdur.

Şirəlibəy: - Salamunəleykum, ay Məşhədi!

Məşhədi Orucəli: - Ay əleykuməsəlam a bəy, sənin qadanı alım! Xoş gəlib, mənim dükanıma bərəkət gətirmisən.

*Məşhədi Orucəli çuxasının ətəklərini belinə bağladığı büzməli qurşağına keçirərək, Şirəlibəyin*

*oturmasına yer göstərir.*

*Şirəlibəy ədəblə kətildə oturaraq üzünü dəlləyə tutur.*

**Şirəlibəy:** - Bəli! Necə dedimsə, elə də işə başla.

*Dəllək Orucəli fitə – dəsmalını «müştəri»sinin boyunqaydasınca boğazına salır. Əlinə ülgüclə sabun fırçasını götürür.*

**Məşhədi Orucəli:** - Bismillah! Ya Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn!

**Şirəlibəy:** - Allah köməyin olsun ay usta, di başla görək.

*Dəllək işini görüb qurtardıqdan sonra Şirəlibəyin qırxılmış üzgözünə Məşhəddən gətirdiyi ətriyyatını da çiləyir.*

**Məşhədi Orucəli:** - Əlhəmdulillah! Bəy, mən işimi bitirdim. Maşallah, gör necə də cavanlaşdın.

*Şirəlibəy ayağa duraraq, cibindən bir onluq pul çıxarıb basır dəlləyin ovcuna.*

**Məşhədi Orucəli:** - Ay rəhmətliyin oğlu, pul lazım deyil, qonağım olginən. Onsuz da sən bizlərə hörmət göstərib, ərizələrimizi pulsuz yazmısan.

**Şirəlibəy:** - Məşhədi, çox sağ ol, əllərin ağrımasın. Zəhmət çəkdin, pulun da qalığı lazım deyil. Halal xoşun olsun, sən də külfət başçısısan.

*Məşhədi Orucəli ovcundakı pula baxıb, sonra müştərisinin üzünü süzərək ağlının azaldığını zənn edi. O, əllərini göyə tutaraq dua etməyə başladı.*

**Məşhədi Orucəli:** - Allah, sən özün kömək olgunan, xalqımızı əzablı günlərdən qorugunan!

*Onlar əl-ələ verib, vidalaşaraq ayrılırlar. Hər ikisi səhnədən çıxandan sonra şəkil qaldırılır.*

**(Pərdə)**

*Səhnənin arxa planında iki pəncərəsi, bir qapısı olan bişmiş kərpicdən tikilmiş ev. Həyət hasarındakı darvaza qapısı ikitağlıdır.*

*Ön planda yarpaqları tökülmüş ağac. Evin qabağındakı səkidə yumru mizlə kətillər qoyulmuşdur.*

*Şirəlibəy başında uzundimdik şapqa, əynində nimdaş yun çuxa, üzü qırxılmış vəziyyətdə fikirli-fikirli gəlib kətillərdən birində əyləşir.*

**Şirəlibəy:** - Pərvərdigara, belə də iş olar? Yaşadıq-yaşadıq, gəlib əzablı günlərə çatdıq. İndi camaat içərisinə necə çıxacağam? Canım, kişinin papağı olar, bığ-saqqalı olar da!...

*Bütün ömrüm boyu şəhərdəki məhkəmə idarəsində mirzəlik edib, dilmanc işləmişəm. Xalqın ərizə-şikayətlərini ruscaya çevirib, dolanmışam. İndi də bu təzə hökumət ayrı hava çalır. Di gəl bütün bunlara döz görüm, necə dözürsən?.. Onsuz da mən böyük müsibətlər içərisindəyəm də...*

*Şirəlibəy əlini salıb çuxasının cibindən alışqanla siqarqabını çıxarır. Bir siqareti odlayaraq öz-özünə danışmağa başlayır.*

**Şirəlibəy:** - Oğlum Bəhruzun anasını, xalamqızını vaxtsız itirdim. Uşaq yetim qalmasın deyə Şirin xanımı ona analıq gətirdim. O da ki,...

*Şirəlibəy siqarına yenə bir qullab vuraraq öz-özünə deyinməyə başlayır.*

**Şirəlibəy:** - Oğlum anadan olanda çox sevindim. Ona rəhmətlik atamın adını qoydum. Arvadımın da sözünü yerə salmayaraq atası Şamil bəyin də adını tifilin qulağına çağırdım. Bununla da uşaq ikiadlı çağrılmağa başladı. Bir gün xəstə arvadım yalvardı ki, uşağı məhəllədəki Zaviyə məscidində mollaxanaya qoyam. Mən isə,...

*Şirəlibəy dərindən köks ötürərək danışığına ara verdi.*

**Şirəlibəy:** - Kaş ki, əlim quruyardı. Hirslənərək sillə vurub, arvadıma dedim ki, uşaq Mirzə Sidqinin məktəbində dərs almalıdır.

*Şirəlibəy qeyzlə ayağa qalxaraq darvaza qapısına tərəf getdi. Əlini qapıdakı cəftəyə atmaq istədikdə üzünü turşudaraq dayandı.*

**Şirəlibəy:** - *(ucadan)* Həəpçi..., Lənət şeytana bu səbr hardan peyda oldu? Bir az da oturum görüm başıma nə gəlir.

*O qayıdaraq əvvəlki kətilin üstündə oturdu. Əlini salıb cibindəki siqar qabı ilə alışqanını çıxararaq bir siqaret də tüstülətdi.*

**Şirəlibəy:** - Allah Bəhruzu mənə gözdağı verdi. Tifil məktəbdə oxuyarkən xəstələnib qulaqları ağırlaşdı. Axşamlar ona çıraq işığında rus əlifbasından dərs öyrətməyə başladım. Vəfalı arvadımın xəstəliyi isə şiddətlənərək vaxtsız dünyadan köçməli oldu.

Bəhruz kağıza həvəslə köçürürdü. Artıq o, fitri istedad sahibi olmaqla rəsm çəkməyə həvəsi artmışdı.

Allah adamdan alanda digər tərəfdən də kəramət yetirər deyərlər. Xeyirxah insanları allah salamət eləsin.

*Şirəlibəy ayağa durub getmək istədikdə dayanıb üzünü zala tərəf tutmaqla yadına nə isə düşdü.*

**Şirəlibəy:** - Arvadımın qohumu Mirzə Cəlilin məsləhəti ilə yaxşı ki, Bəhruzu Tiflisə oxumağa göndərdim.

Şükürlər olsun ki, orada yaxşı sənətkarlardan dərs alaraq evimizə döndü. İndi də ki, neçə vaxtdır yazıq vərəmli olduğundan bir dəri, bir sümük qalmışdır.

*Həyətdəki darvaza qapısı açılır. Bəhruz başıaçıq, nimdaş qış libasında, yorğun vəziyyətdə əlində fırça-rəng qutusu, qoltuğunda da iri qovluq həyətə daxil olur. Şirəlibəy oğlunu gördükdə ağacın gövdəsi ardında gizlənmək istəyir.*



**Bəhruz:** - *(gülərüzlə)* Ata, bu sənsən? Məndən olmaya gizlənirsən?

**Şirəlibəy:** - *(gizləndyi yerdən çıxır)* Yox, ay oğlum, elə azan vaxtıdır, istədim ki, burada dəstəmaz alam.

**Bəhruz:** - *(hiddətlə)* Ata, bu nə görkəmdir, özünü niyə bu kökə salmısan? Bəs sənin bığın-saqqalın hanı?

**Şirəlibəy:** - Oğul, Bəhruz. Bu zamanın hökmüdür, gəl mənim dərdimi təzələmə. Onsuz da, mənə dəyən təpik dəymişdir.

*Bəhruz atasının kədərləndiyini görüb, onu incitdiyinə peşiman olur. Əlindəki fırça-rəng qutusunu mizin üzərinə qoyur.*

**Bəhruz:** - Ata, təzə çəkdiyim şəkillərə baxmaq istəyirsənmi?

**Şirəlibəy:** - Əlbəttə, gətir baxım.

*Bəhruz soyuqdan donmuş əllərini nəfəsilə isidərək şəkil qovluğunu atasına verir.*

**Şirəlibəy:** - *(qovluğun üzərindəki sözü oxuyur)* «Naxçıvan yadigarları». Çox gözəl, *(açaraq)* baxım görüm, nə şəkillər çəkmisən?

**Bəhruz:** - *(bir-bir rəsmlərini göstərərək)* Ata, bunlar şəhərimizin mənzərələridir. Bu Nuh peyğəmbərin qəbridir, bu da ki, İlan dağıdır...

**Şirəlibəy:** - Oğul, Bəhruz. Hələ mənim babam ikinci Kalbalıxan söyləmişdir ki, dünyanı su basarkən Nuh peyğəmbərin əfsanəvi gəmisi Naxçıvan dağlarında dayanmışdır.

**Bəhruz:** - Ata, düz deyirsən. Hələ mən Tiflisdə olarkən rəssam dostum Şmerlink də, söyləyərdi ki, bəşər tarixində Nuh adlı peyğəmbərin gəmisi üzərək Qafqazdakı Qapı-Cudi zirvəsində dayanmışdır.

**Şirəlibəy:** -Oğul, yəqin ki, o Şmerlinkdir.– nədir dindən başı çıxanlardanmış.

**Bəhruz:** -Ata, orasını bilmirəm, ancaq məscidin axundu Mir Bağır ağa danışmışdır ki, bir peyğəmbər Naxçıvanda yaşamış və burada da dəfn olunmuşdur. Mən də onun məsləhəti ilə həmin yerin şəklini çəkdim ki, məscidə hədiyyə verəm.

*Bəhruz çəkdiyi rəsmləri bir-bir göstərərək.*

**Bəhruz:** - Bu da məhəlləmizdəki qaçqın uşaqların şəkilləridir.

*Yenə də o, bir-bir şəkilləri göstərir.*

**Şirəlibəy:** - Oğul, şəhər teatrına çəkdiyin Marksla Engelsin portretlərinin zəhmət haqqını ala bildinmi?

**Bəhruz:** - Yox, ata. Vəd verib, pul verməmişlər. İndi mən «qırmızılara» şikayət yazmışam.

**Şirəlibəy:** - *(ah çəkərək)* Oğul, Bəhruz. Sənin rəssamlıqda bəxtin gətirmişdir. Çox gözəl rəsmlərin vardır. Bu şəkillər şəhərimizdəki fotoqraf Arakelin çəkdiyi şəkillərdən qat-qat üstündür.

**Bəhruz:** - Ata, bütün bunlar xalqımızın sənət tarixində qalacaqdır. Gələcək nəsillər bunlardan bəhrələnərək bizləri yada salacaqlar. Erməni quldurları soydaşlarımızı dəfələrlə yurd-yerlərindən qovaraq, onlara əzab vermişlər. Ata, bütün bunlar elə xalqımızın başına gətirilən əzablı günlərdir də...

**Şirəlibəy:** - Bəli! Oğul, elədi ki, var.

**Bəhruz:** - Ata, bu rəsm payızda çəkdiyim Əlyabad kəndidir. Bu da ki, «Bədrlənmiş aylı gecə» rəsmidir ki, həmin mənzərəni çəkəndən sonra sətəlcəm olub xəstələnmişdim.

**Şirəlibəy:** - Bəhruz, «Bədrlənmiş aylı gecə» rəsmi çəkməklə sağlamlığını təhlükəyə saldın. *(Şirəlibəy diqqətlə oğlunu gözdən keçirir).* Bu gün süd içmisənmi?

*Şirəlibəy əlini sinəsinə qoyaraq, başı gicəllənir və yerə yıxılmaq istəyir. Bəhruz bunu görcək qovluğu mizin üstünə tullayaraq atasının qolundan yapışıb güclə saxlayır.*

**Bəhruz:** - Ata, sənə nə oldu? Bu saat evdəki «Qızlar bulağı»ndan gətirilmiş sudan gətirim içginən.

**Şirəlibəy:** - *(kətilin üstündə oturur)* Yox, ay bala, lazım deyil, nə isə rəhmətlik anan yadıma düşdü. Kaş ki, yaşayıb sənin bu günlərini görə biləydi.

**Bəhruz:** - Ata, Nuhun qəbrini çəkməyə gedərkən yolumu şəhər qəbirstanlığından salmışdım. Ananın da qəbrini ziyarət edib, üstünü təmizlədim.

*Şirəlibəy əlini cibinə salaraq, siqarqabı ilə kibritini çıxardı, bir siqaret yandırıb, tüstüsünü göyə üflədi. Sonra üzünü oğluna tərəf tutaraq ciddi şəkildə dedi:*

**Şirəlibəy:** - Oğul, Bəhruz. Çoxdandır ki, sənə bir söz demək istəyirdim, indi yadıma düşdü. Şəhər qəbirstanlığının kənarında «Köhnə qala» deyilən yerdə İmamzadə tikilisi vardır. Onun ətrafında Kəngərlilər tayfasından ölənləri dəfn etmişlər. Sənin baban, rəhmətlik anan, müəllimin Mirzə Sidqi, nə bilim kimlər – orada uyuyurlar...

*Şirəlibəy bir az sözlərinə ara verərək, sağ əlini Bəhruzun çiyninə qoyub qorxa-qorxa danışır.*

**Şirəlibəy:** - Oğul, orada kümbəzvari qədim abidə vardır. Ehsanxan söyləyərdi ki, Məhəmməd Qacar şah, babamız Birinci Kalba-

lıxanın gözünü çıxartmışdır. Nə var, nə yox ki, xan ona təkidlə demişdir ki, Nuhun qəbri Naxçıvandadır. *(Şirəlibəy dərindən ah çəkir).* Görüm tarixi dəyişənlər lənətə gəlsinlər. Eşitdiyimə görə peyğəmbərin oğlu Yafəsin də məzarı Sarıdağın ətəklərində, arvadı Sarbanlar məhəlləsində daş tabutda basdırılmışlar.

Bəhruz: - Ata, günü sabah tezdən gedib həmin türbələrin də şəkillərini çəkərəm.

Şirəlibəy: - Ay oğul, məsləhətim odur ki, Nuhun qəbrini də, hətta peyğəmbərin özünün də saçlı-saqqallı qiyafədə şəkillərini çəkəsən. Vaxt gələr həmin şəkillər səni şöhrətləndirər.

Bəhruz: - *(öskürə-öskürə)* Ata, deyirsən ki, peyğəmbərin də portretini çəkim? Bəs sifətdən kimə oxşasa yaxşı olar?

Şirəlibəy: - Sifətdən deyəndə ki, saçlı-saqqallı nurani bir kişi çək, istəsən evdəki rəhmətlik babanın fotoşəklinə baxarsan və ona oxşadarsan.

*Bəhruz gülümsəyərək, başını aşağı salır.*

Bəhruz: - Ata, çalışaram peyğəmbərin portretini çəkəndə heç kəsə oxşamasın...

*Qapı döyülür. Tak, tak, tak.*

Şirəlibəy: - Kimdir qapını döyən? Darvaza qapısı açıqdır. Həyətə girin.

*40-45 yaşında bir nəfər qaçqın qadın yamaqlı paltarda çiynində torba qapıdan səhnəyə (həyətə) daxil olur.*

Qaçqın qadın: - Salamunəleykum!

Şirəlibəy: - Ay, Əleykəsalam!

Qaçqın qadın: - Ay ev yiyəsi, Allah rizasına biz qaçqınlara kömək edin, dünəndən acam.

*Şirəlibəy məyus halda əlini çənəsinə apararaq tələsik soruşur.*

Şirəlibəy: - Bacı, adın nədir, hansı eldənsən?

Qaçqın qadın: - Adım Gülsümdür. Göyçə mahalından aşağa Vedibasar tərəfdən Avşar kəndindənəm. Allah ermənilərə lənət eləsin!

Ata-baba yurdumuzdan bizləri qovaraq, qaçqın etmişlər. Neçə vaxtdır ki, Naxçıvana pənah gətirmişik. Sağ olsunlar Naxçıvan camaatı bizi ac qoymurlar.

Şirəlibəy: - Bacım, Abbasqulubəyi tanıyırsınız?

Qaçqın qadın: - Əlbəttə, görüm onu yüz yaşasın!

Abbasqulubəy qonşu Şadıllı kəndindəndir.

Şirəlibəy: - Onun sayəsində biz naxçıvanlılar qurtuluş tapdıq. Azğın erməniləri onun dəstəsi Naxçıvan torpaqlarından qovmuşlar. Ancaq təzə yaranmış Firqə hökuməti bəyin fədakarlığına məhəl qoymadan kişiyə heç çox sağ da deməmişdir. O da silahlı dəstəsini Arazdan keçirərək İrana getmişdir.

Qaçqın qadın: - Deyirlər ki, Zəngəzurda yenə də erməni daşnakları müsəlmanları qırıb, qanlarına qəltan ediblər.

*Bayaqdan söhbətə qulaq asan Bəhruz atasına tərəf üzünü tutaraq öskürə-öskürə danışır.*

Bəhruz: - Ata, sağ olsun türkləri. Kazım Qarabəkir Paşa öz silahlı dəstəsilə Naxçıvana köməyə gəlmiş və tayqulaq Andranik Ozanyanın quldur dəstəsini qovmuşlar.

Qaçqın qadın: - Ay qardaş, yaşadıq-yaşadıq yamanca əzablı günlərə gəlib çatdıq...

Şirəlibəy: - Eh, ay bacı, xalqımızın tarix boyu neçə-neçə belə əzablı .günləri olmuş, torpaqlarımız azalaraq əldən-ələ düşmüşdür.

Qaçqın qadın: - Nə bilim ey, mən bisavad bir biçarəyəm. Allah özü biləndir...

*Şirəlibəy Bəhruza tərəf çevrilərək deyir:*

Şirəlibəy: - Ay oğul, qonağı apar evə. Sobanı qalayın, hörmət göstərin ki, ananın da ruhu şad olsun.

*Sonra Şirəlibəy evə tərəf dönərək çağırır.*

Şirəlibəy: - Ay Şirinay, qonağımız var. Sobanı qala, çay dəmləyin, yemək tədarükü görün. Mən də dəstəmaz alıb gəlirəm.

*Bəhruzla qaçqın səhnədən çıxırlar. Şirəlibəy tənha qalır, öz-özünə danışır.*

Şirəlibəy: - Eh, deyəsən tezliklə mənim də işlərim yaxşı olmayacaqdır. *(Bir az fikrə gedir)* Dostum Mirzalıbəy gizlində mənə bir söz dedi. Elə onun sözüynən də, saqqalımla xudahafizləşdim.

*Pərdə arxasında qadın səsi gəlir.*

- Ay kişi, ay Şirəli görürsən ki, evimizdə qonağımız var. Tez ol gəlginən, təzə çay dəmləmişəm.

Şirəlibəy: - Yaxşı, gəlirəm.

*Sonra o, əllərini yuxarı qaldıraraq uca səslə dua edir.*

Şirəlibəy: - Allah, sən özün kömək ol! Mərdi namərdə möhtac qoyma!

Xalqımızı aclıqla imtahana çəkmə, bu əzablı günlərdən qurtar!

Amin!..

**(Pərdə)**

